## NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA *Euphrasiya* CİNSİ NÖVLƏRİNİN TƏDQİQİ VƏZİYYƏTİ

**Səidə Bayramova**

*AR ETN Bioresurslar İnstitutu (Naxçıvan)*
*seidebayramova02@gmail.com*

Naxçıvan Muxtar Respublikası florasında *Euphrasia* L. – Gözotu (Çatılotu) cinsi növlərinin müasir vəziyyətini tədqiq etmək, bioekoloji xüsusiyyətləri, ehtiyatı və fitokimyəvi tərkibini müəyyənləşdirmək istər nəzəri, istərsə də təcrübi baxımdan mühüm əhəmiyyətə malik olmaqla aktuallıq kəsb edir. *Euphrasia* L. cinsinin tədqiqi vəziyyətinə nəzər saldıqda aydın olur ki, bu cins ətraflı şəkildə öyrənilməmişdir. Bunu nəzərə alaraq, tərəfimizdən Gözotu cinsinin öyrənilməsinə başlanılmışdır. Keçiqulağıkimilər – *Scrophulariaceae* Juss. fəsiləsinə aid olan *Euphrasia* L. – Gözotu cinsi son araşdırmalara əsasən, *Orobanchaceae* Vent. – Orobanşkimilər fəsiləsinə daxil edilmişdir. Bu cins Şimal yarımkürəsinin tropiklərdən kənar ölkələrində, xüsusən Şərqi və Mərkəzi Asiyanın dağlıq ərazilərində yayılan 450-ə yaxın növü özündə birləşdirən hemiparazit bitkilərin bir cinsidir. *Euphrasia* L. cinsinə aid olan bitkilər əsasən hündürlüyü 5-50 sm-ə çatan birillik ot bitkiləridir. Cinsin nümayəndələri zəif inkişaf etmiş, əksərən saçaqlı kök sisteminə malikdir. Morfoloji quruluşuna görə bu cinsə aid olan növlər sapları dik, bir qədər qısa ətli olmayan və budaqlanan gövdə ilə xarakterizə edilirlər. Çiçəklər qeyri-müntəzəm olub, qoltuqlarda tək-tək, apikal sünbülşəkilli və ya salxımşəkilli, üst hamaşçiçəkdə saplaqsız və ya saplaqlı formada toplanmışdır. Çiçəkləri əksərən sarımtıl ləkəli və tünd-bənövşəyi zolaqları olan ağ, mavi və ya yasəməni rəngdədir. Kasacıq pazvari və ya boru şəklindədir, zirvədə çox az çıxıntılıdır. Tozlanma əsasən böcəklər tərəfindən həyata keçirilir. *Euphrasia* L. növlərinin yüksək polimorfizmi və hibridləşmə proseslərinin geniş inkişafı təyinat üçün müəyyən çətinliklər yaradır və bir çox aralıq formaların yaranmasına səbəb olur. Növləri fərqləndirmək üçün əsas xüsusiyyətlər yetkinlik forması və bitkinin təpə hissəsindəki çiçəkaltlığı yarpaqlarının forması və çiçək tacının ölçüsüdür.

Gözotu cinsinin muxtar respublika ərazisində tədqiqi vəziyyəti araşdırılmış, toplanılan ədəbiyyat materialları əsasında cinsin müasir vəziyyəti tədqiq edilmişdir. "Флора СССР" əsərində Gözotu cinsinin 62 növü, "Флора Европейской части СССР" kitabında isə bu cinsin 27 növü haqqında məlumat verilmişdir. "Флора Кавказа" əsərində Gözotu cinsinin dünyada 100-dən çox növünün, Qafqazda isə 24 növünün yayılması haqqında məlumatlar mövcuddur. "Флора Азербайджана" əsərində *Euphrasia* L. – Çatılotu cinsinin 150-dən artıq növünün Avropa, Asiya, Şimali və Cənubi Amerikada, 25 növünün Qafqazda, 16 növünün isə Azərbaycanda yayılması haqqında məlumat vardır. Cinsə aid olan növlərin taksonomik vəziyyəti haqqında məlumat S.K.Çerepanovun əsərində də öz əksini tapmışdır. A.M.Əsgərov tərəfindən aparılmış araşdırmalar nəticəsində Azərbaycan florasında *Euphrasia* L. cinsinə daxil olan 15 növün adı çəkilmişdir. T.H.Talıbov, Ə.Ş.İbrahimov və Ə.M.İbrahimov tərəfindən Naxçıvan MR-in florasına daxil olan əksər fəsilələrin taksonomik icmalına dair tədqiqat işləri aparılmış və "Naxçıvan Muxtar Respublikası

florasının taksonomik spektri (Ali sporlu, çılpaqtoxumlu və örtülütoxumlu bitkilər)" əsəri yazılmışdır. Bu əsərdə *Euphrasia* cinsinin Naxçıvan MR ərazisində bitən aşağıdakı 7 növü qeyd edilmişdir:

1. *Euphrasia caucasica* Juz. – Qafqaz gözotu
2. *Euphrasia georgica* Kem. Nath. – Gürcüstan gözotu
3. *Euphrasia pectinata* Ten. – Daraqlı gözotu
4. *Euphrasia tatarica* Fich. et Spreng. – Tatar gözotu
5. *Euphrasia petiolaris* Wettst. – Saplaqlı gözotu
6. *Euphrasia townsendiana* Freyn. ex Wettst. – Tounsend gözotu
7. *Euphrasia stricta* D.Wolff. ex J.F.Lehm. – Şaxəli gözotu